## ◆ Zərəngiz Dəmirçi Qayalı

### 50 Yaşıma

Çiçəklər ətriylə yaysın eşqimi,
Dağlar, dumanın da, çəninlə gəlsin!
Mənim 50 yaşım, mənim şah yaşım!
Ömrümün xoş günü səninlə gəlsin!

Qar olsan zirvədən almaq istərəm,
Bar olsan budaqdan salmaq istərəm,
Qəlbinə dəniz tək dolmaq istərəm,
Köklə sarı simi, dəminlə gəlsin!

Ömür tamaşadır, həyat səhnədir,
Dünya dəyirmandır, çarxı köhnədir,
Suyu selləmədir, arxı dəhnədir,
*Zərəngiz*, de bəxtin gəminlə gəlsin!
Ömrümün xoş günü səninlə gəlsin!